*AMEA Nəsimi adına Dilçilik İnstitutu,*
*Dilçilik araşdırmaları, 2023, №3* *ISSN: 2664-5432*
*Səhifə: 22-26*
*http://doi.org/10.59849/2664-5432.2023.3.22*

**MİRVARİ İSMAYILOVA***

# QƏZƏNFƏR KAZIMOVUN DİL TARİXİ KONSEPSİYASI

**XÜLASƏ**

Məqalədə görkəmli dilçi-alim prof. Q.Kazımovun Azərbaycan türklərinin dil tarixinə aid "Azərbaycan dilinin tarixi (ən qədim dövrlərdən XIII əsrə qədər)" əsəri alimin dil tarixi konsepsiyası kontekstində nəzərdən keçirilir. Qloballaşan dünyada xalqların öz milli mənliyini təsdiq və təqdim etmək tendensiyasının gücləndiyi müşahidə olunur. Bunun üçün xalqlar öz həqiqi tarixini sübut etməyə dirəniş göstərirlər. Hər bir xalq vahid dünyaya milli kimliyini təqdim etməklə daxil olmaq istəyir. Dünya tarixində cahanşümul rol oynamış türklərin ilkin vətəni olan Ön Asiyadan – Azərbaycandan nəşət etmiş Azərbaycan türklərinin tarixi dünya ictimaiyyətinə hansı səviyyədə təqdim olunmuşdur. Müasir dövrümüzdə elmi ictimaiyyətə tarixi həqiqətləri təhrif olunmuş şəkildə təqdim edən alimlərə, elmi mənbələrə doğru cavab verən Q.Kazımovun göstərilən əsəri alimin dil tarixi konsepsiyasının müddəaları çərçivəsində təqdim olunur. Bu əsərin əsas ideya xətti keçən onilliklərin ən mühüm problemi olan e.ə. III-I minilliklərdə Ön Asiyada türk varlığını sübut etmək olmuşdur? Əsərdən alınan elmi nəticələr türkologiyada kök salmış və bir çox yanlış konsepsiyalara yol açan Türk xalqlarının tarixi inkişaf mərhələlərinin təsnifatında, Altayşünaslıq nəzəriyyəsində və s. mövcud olan yanlışlıqları yeni elmi baxış bucağından şərh etməyi şərtləndirir.

**Açar sözlər**: *prof. Q.Kazımov, türklər, Azərbaycan dili.*

Qloballaşma XXI əsrin intensiv prosesi kimi, müasir cəmiyyətin iqtisadi, siyasi, mədəni sahələrinə sirayət edərək ona bütün səviyyələrdə öz qaçılmaz təsirini göstərir. Müasir dövrümüzdə elmin sürətlə inkişafı daha irəliyə getməyə, əvvəllər qazanılmış nailiyyətləri, stereotipləri yıxıb-dağıtmağa qədər cəsarətli addımlar atması ilə nəticələnir. Eralar, sivilizasiyalar, fərqli dinlər, dillər, xalqlar bir-birilə çulğaşaraq hələlik nəticəsi bilinməyən bir şəkildə irəli gedir. Qloballaşma müasir dövrdə dövlətlərarası sərhədləri silir, mədəniyyətləri, həyata baxışı, dinləri, etnosları qarışdırır. Lakin qarşısıalınmaz bu axın içərisində çox qəribə tərzdə tarixin dərin qatlarına enərək itib-batmış, gizlədilmiş, təhrif olunmuş həqiqətləri öyrənmək istəyən bir meyl, eyni zamanda təbii bir qüvvə təmkinlə baş qaldırıb öz iradəsini diqtə edir. Xalqlar, kiçik etnoslar öz milli mənliyini təsdiq və təqdim etmək üçün dirəniş göstərirlər. Bu zaman xalqların öz həqiqi tarixini sübut etmək meyli güclənir. Əlbəttə, bunun ən başlıca səbəbi xalqların milli mənliyinin, milli özünüdərk hissinin güclənməsi ilə bağlıdır. Hər bir xalq vahid dünyaya milli kimliyini təqdim etməklə daxil olmaq istəyir və bu hiss Qərbdə daha güclü şəkildə özünü göstərir. Bəs biz necə, milli kimliyimizi dünya evinə təqdim etmək üçün tarixin hansı qatlarına qədər enə bilmişik? Milli özünüdərk hissi bizdə tarixin qaranlıq dalanlarında itib-batmış həqiqətləri üzə çıxarmağa yetirmi? Çox təəssüflər olsun ki, biz bu sahədə hələ də yekdil fikrə gəlməmişik.

Bu mənada Azərbaycan xalqının, Azərbaycan dilinin, Azərbaycan dövlətçiliyi tarixinin öyrənilməsi sahəsində böyük tədqiqat aparmış Q.Kazımovun xidmətləri əvəzedilməzdir. Onun bu sahədəki tədqiqatlarını əks etdirən "Azərbaycan dilinin tarixi (ən qədim dövrlərdən XIII əsrə qədər)" əsərini bir neçə istiqamətdə təhlilə və tədqiqə cəlb etmək lazımdır. Qəzənfər müəllim onu bu əsəri yazmağa vadar edən əsas səbəb kimi, keçən onilliklərin ən mü-

* ADPU, filologiya elmləri doktoru, professor, *ismayilova.mirvari1960@gmail.com*

hüm problemi olan e.ə. III-I minilliklərdə Ön Asiyada türk varlığının sübutu olduğunu göstərir. Zənnimizcə, bunun üçün sadəcə Vətənini sevmək, sözün əsl mənasında Böyük Vətəndaş olmaq, cəsarətli olmaq, həqiqətin gözünə dik baxmaq lazımdır.

Q.Kazımovun, ümumiləşmiş şəkildə desək, dil tarixi konsepsiyasının elmi ictimaiyyətə çatdırmaq istədiyi əsas müddəaları bunlardır:

1. Türklərin ilkin vətəni Ön Asiya – o cümlədən Azərbaycandır və türklər buradan Mərkəzi Asiyaya - Altaya və dünyanın müxtəlif ərazilərinə miqrasiya etmişlər və *xalqların Böyük köçü* adlanan dövrdə onların miqrasiyasını Azərbaycana gəliş kimi yox, geri dönüş adlandırmaq lazımdır.
2. Ulu dilin (ilk bəşər dilinin) harada meydana çıxdığını, dil ailələrinə harada təcrid olunduğunu, ilkin miqrasiyaların nə zaman və haradan başlandığını öyrənmək.
3. E.ə. III-I minilliklərdə Ön Asiyada geniş türk varlığının sübutu.
4. Bəşər sivilizasiyasının, ümumiyyətlə, hər şeyin: müasir insan tipinin əsas əlaməti olan dilin təşəkkülü, dialekt parçalanmaları və ilkin miqrasiyaların istiqamətini müəyyən etmək.
5. Madalıların (midiyalıların) kimliyini sübut etmək.
6. Azərbaycanın aborigen tayfalarının – kutilər, lullular, sular, turukkilər, kaslar, kaspilər, mağlar, utilər, mannalılar, madalılar, albanlar və b-nın, sakların, skiflərin, kimmerlərin düzgün mənşəyini müəyyən etmək.
7. Anadolu və azəri dillərinin müqayisəyə gəlməz tarixi və təkamülü yolunun eyni ölçülü sayılmasının yanlışlığı, azəri dili anlayışının düzgün elmi izahı.

Q.Kazımov bu tarixi gerçəklikləri görmək üçün başqa bir konsepsiyanı - vətənpərvərlik duyğuları yaradan, xalqa onun keçmişini sevdirən Alim olmaq konsepsiyasını irəli sürür. O özü söyləyir ki, Y.Yusifov, Q.Qeybullayev, F.Zeynalov, T.Hacıyev, A.Məmmədov, Z.Həsənov kimi alimlərin elmi araşdırmaları bizə onların söyləmədikləri nəticələrə gəlməyə əsaslar vermişdir. Bu nəticələr isə möhtəşəm nəticələrdir: e.ə.III-I minilliklərdə və daha qədim dövrlərdə Azərbaycan ərazilərində məskunlaşmış türk tayfalarının, demək olar ki, hamısının Orta və Mərkəzi Asiyada sonrakı minilliklərdə yaşamış eyniadlı bölümlərini müəyyənləşdirməklə ilkin miqrasiyaların yolunu aydınlaşdırmaq, Xəzərin Şərqindən Çin hüdudlarınadək məskunlaşaraq Mərkəzi Asiyada artıb-çoxalan, böyük Hun imperatorluğu tərkibində Ön Asiyaya dönən türk tayfalarının ilkin vətəninin Ön Asiya olduğunu qəbul və təsdiq etmək.

Nəticədə həqiqi elmi araşdırmalarını dərindən, Vətən və Xalq sevgisi ilə araşdıraraq, onların demədikləri və ya deyə bilmədikləri həqiqətləri məhz Q.Kazımov dilə gətirir. Qəzənfər müəllim Azərbaycan xalqının, Azərbaycan dilinin mənşəyini düzgün araşdırmağı özləri üçün həqiqi vətəndaşlıq borcu hesab edən alimlərin tədqiqat işlərini yüksək qiymətləndirir və qeyd edir ki, onların tədqiqatları nəticəsində Ön Asiyada türklərin tarixi zəngin faktlar əsasında Şumerə çatdırılmışdır və o dövrlərdə şumer və türk yaşıdlığının sübutu dahiyanə xidmət idi. Artıq şumer-türk mənşə birliyinə əsaslar verən dərin elmi araşdırmalar aparmağın vaxtıdır.

Biz isə öz növbəmizdə Qəzənfər müəllimin “Azərbaycan dilinin tarixi (ən qədim dövrlərdən XIII əsrə qədər)” əsərinin işığında daha başqa həqiqətləri söyləmək qənaətinə gəlirik: Türkologiyada kök salmış və bir çox yanlış konsepsiyalara yol açan Türk xalqlarının tarixi inkişaf mərhələlərinin təsnifatında, Altayşünaslıq nəzəriyyəsində və s. mövcud olan yanlışlıqları yeni elmi baxış bucağından şərh etmək lazımdır.

Məlumdur ki, türklərin ilkin beşiyi olan Ön Asiyaya türklərin sonradan gəldiyi konsepsiyası uzun müddət elmdə hakim mövqe tutmuşdur: guya türklərin tarixinin hunlardan başladığı, hunlardan əvvəl Ön Asiyada "türk" anlayışı olmadığı, türklərin ilkin vətəninin Mərkəzi Asiya olduğu iddia olunmuşdur. Guya türklər Altayda doğulmuş, artmış və bütün Avropa ərazilərinə, Cənubi Qafqaza, Ön Asiyaya Mərkəzi Asiyadan, tarixdə "xalqların böyük köçü" adlanan dövrdə hunlarla gəlmişlər. Buna görə Sovet türkologiyasından bizə miras qalmış türk xalqlarının tarixi və inkişaf mərhələləri ilə bağlı mövcud təsnifat artıq bitkin sayıla bilməz. Çünki əks halda, biz türklərin ilkin beşiyi olan Ön Asiyada, eyni zamanda Azərbaycan ərazisində mövcüd olmuş ilk dövlət qurumları – Aratta, Lullubi, Şumer, Kas, Manna, Maday dövlətlərinin, daha əvvəlki "Avesta"nın varlığından xəbərsiz kimi, ya da sadəcə başlanğıcın, ilkin, çox böyük bir dövrün üstündən xətt çəkərək türk xalqlarının tarixini geri çəkmiş oluruq.

Türk xalqlarının tarixinin yenidən təsnif olunmasına ehtiyac vardır və bu təsnifatda türklərin ilkin beşiyi - Ön Asiya, onun aborigen tayfaları - türk tayfaları öz layiqli yerini tutmalıdır. Prototürkün harada yaranması və parçalanması barədə fikirləri dolaşdıran, mürəkkəbləşdirən məsələlərdən biri də Altay nəzəriyyəsidir. Altay nəzəriyyəsinə görə tunquslar, mancurlar, monqollar və türklər Altay ərazisində yaşayan əhalidən təcrid olunmuşlar və genealoji cəhətdən qohum dillərdir [Zeynalov: 1981, s.53].

Əslində,Türklərin Şərqə birbaşa ilkin hərəkəti, çox güman ki, mezolitə (XII-VIII minilliklər) aiddir, çünki ən mühüm miqrasiyalar dövrü mezolit dövrü hesab olunur. Mezolitdən keçən minilliklər ərzində (hun dövrünə qədər 8 min il) türklər artıb-çoxalmış, tədricən bu kökdən tipoloji cəhətdən eyni olan tunqus-mancur və monqol dilləri təcrid olunmuşdur [Kazımov: 2003, s.55]. "Altay nəzəriyyəsinə" görə türk, monqol, tunqus-mancur dilləri yaxın qohumdur. Bu qohumluğu qəbul etməyənlər də vardır. Azərbaycan türkoloqlarından F.Zeynalov, F.Cəlilov və b. bu nəzəriyyəni qəbul etmirlər. Bu zaman türk dilləri ayrıca bir ailə, tunqus-mancur və monqol dilləri başqa bir ailə hesab olunur. Türkologiyada bu məsələ özü də ayrıca bir problemdir və həllini gözləyir. Bu barədə Q.Kazımov yazır: "uzaqgörən tədqiqatçılar bu dillər arasındakı yaxınlığı daha aydın təsəvvür edir, spesifik fərqləri tarixi inkişafın təbii məhsulu hesab edirlər" [Kazımov: 2003, s.22].

Q.Kazımov göstərir ki, Altay nəzəriyyəsini müəyyən şərtlə biz də düzgün hesab edirik. Bir halda ki, tunqus, mancur, monqol dilləri ilə türk dilləri arasında, məsələn, deyək ki, türk dilləri ilə Hind-Avropa dilləri arasında olan yaxınlıqdan daha çox genetik yaxınlıq vardır, onda deməli, bu dillər bir protodildən təcrid olunmuşlar. Lakin, bu, pratürkün ilkin vətəninin Ön Asiya olduğunu inkar edə bilmir.

Altay türklərin beşiyi, ilkin vətəni deyildir. Türklərin beşiyi Ön Asiyadır. Hər şey buradan başlamışdır. İlk miqrasiyaların çıxış nöqtəsi Ön Asiyadır. E.ə. VIII-VII əsrlərdə sakların, kimmerlərin, skiflərin Azərbaycana gəlişi qohum tayfaların çox sonrakı əks miqrasiyalarıdır – Vətənə qayıdışıdır.

Türklər güclü qol olduğundan onların Qərbə və Şərqə yayılma arealı da geniş olmuşdur. ***Altay*** sözünün özünü də türklər indiki Altaya Ön Asiyadan - e.ə. III minilliyin başlanğıcında son şüaları görünən və bəlkə də neçə yüzillik tarixi olan Aratta ərazi adından aparmışlar. "Bu ad bir qədər sonra (Altaydan çox qabaq) elə Ön Asiyada Alatey şəklində işlənmişdir" [Kazımov: 2003, s.54].

Y.Yusifovun fikirləri də müəyyən mənada bu məsələyə aydınlıq gətirir: "prototürklərin ilkin vətəni Ön Asiya olmuşdur, e.ə. VIII-VI minilliklərdə onlar buradan yayılaraq Mərkəzi Asiya və Altaya çatmışdır" [Yusifov: 1994, s.112].

Göründüyü kimi, Altay nəzəriyyəsinin özündə də müəyyən məsələlər dəqiqləşdirilməlidir və bunlar türkologiyada öz həllini gözləyən problemlərdir.

## ƏDƏBİYYAT

**1.** Hacıyev T. Azərbaycan dilinin yazıya qədərki izləri haqqında. Azərbaycan filologiyası məsələləri. Bakı, Elm, 1983.

**2.** Həsənov Z. Çar skiflər (Çar skiflərin və qədim oğuzların etno-dil eyniləşdirilməsi). Bakı, Əbilov, Zeynalov və oğulları, 2005.

**3.** Kazımov Q. Azərbaycan dilinin tarixi (ən qədim dövrlərdən XIII əsrə qədər). Bakı,Təhsil, 2003.

**4.** Qeybullayev Q.Ə. Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı, ADN, 1994.

**5.** Yusifov Y. Çin yazılı kaynaklarında eski türklerin izleri. IX Türk Tarih Konqresinden ayrıbacım. Ankara, 1994

**6.** Zeynalov F. Türkologiyanın əsasları. Bakı, Maarif, 1981.

**7.** Мамедов А. Теоретические проблемы восстановления первичных корней в тюркских языков // Azərbaycan filologiyası məsələləri. 2-ci bur. Bakı, 1984.

**8.** Редер Д.Г., Черкасова Е.А. История древнего мира. Москва, Просвещение, 1985.

**Mirvari ISMAYILOVA**

**THE CONCEPT OF THE HISTORY OF THE LANGUAGE OF GAZANFAR KAZIMOV**

## SUMMARY

In the article is considered the work of a prominent linguist, prof. G. Kazymov on the history of the language of the Azerbaijani Turks "History of the Azerbaijani language (from ancient times to the XIII century)" in the context of the scientist's concept of the history of the language. In a globalizing world, it is observed that there is a growing tendency for peoples to affirm and represent their national identity. For this, nations struggle to prove their true history. Each nation wants to enter into a single world, representing its national identity. At what level is the history of the Azerbaijani Turks, who originated in East Asia - Azerbaijan, the original homeland of the Turks, who played a big role in world history, presented to the world community? Within the framework of the concept of linguistic history of the scientist, the work of G. Kazymov is presented, which gives the most accurate answers to scientists and scientific sources that present historical truths to the scientific community in a distorted form in modern times. The main idea of this work is the most important problem of the last decades. In the 3rd-1st millennia, this was supposed to prove the existence of the Turks in Central Asia. The scientific results obtained in the work lead to the interpretation of the errors of the theory of Altaistics from a new scientific point of view in the classification of the stages of the historical development of the Turkic peoples, which are rooted in Turkic studies and lead to many misconceptions.

**Key words**: *prof. G. Kazymov, Turks, Azerbaijani language.*

**Мирвари ИСМАИЛОВА**

**КОНЦЕПЦИЯ ИСТОРИИ ЯЗЫКА ГАЗАНФАРА КЯЗИМОВА**

**РЕЗЮМЕ**

В статье рассматривается работа видного ученого-лингвиста, проф. Г.Кязимова по истории языка азербайджанских тюрков «История азербайджанского языка (с древнейших времен до XIII века)» в контексте его концепции истории языка. В глобализирующемся мире наблюдается растущая тенденция народов подтверждать и представлять свою национальную идентичность. Для этого народы упорно пытаются доказать свою истинную историю. Каждый народ хочет войти в единый мир, представив свою национальную принадлежность. На каком уровне представлена мировому сообществу история азербайджанских тюрков, впервые появившихся в Передней Азии – Азербайджане, исконной родине тюрков, сыгравших большую роль в мировой истории? Указанная работа Г.Кязимова, справедливо возражающего ученым, научным источникам, преподносящим исторические истины сегодняшней научной общественности в искаженном виде, представлена в рамках положений концепции истории языка ученого. Основная идея этой работы заключается в решении важнейшей проблемы прошедших десятилетий – доказательстве тюркского присутствия в Передней Азии в III-I тысячелетиях до н.э. Научные результаты, полученные в работе, позволяют с новой научной точки зрения комментировать укоренившиеся в тюркологии и открывающие дорогу ко многим ошибочным концепциям искажения, существующие в классификации этапов исторического развития тюркских народов, теории алтаистики и т.д.

**Ключевые слова**: *проф. Г.Кязимов, тюрки, азербайджанский язык.*